UOT 327; 930.22

KƏMALƏ RUİNTƏN
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universitetinin dosenti
k.ruintan@rambler.ru

KİBER MƏKAN: DİPLOMATİYA, YOXSA MÜHARİBƏ MƏKANI?

DOI: https://doi.org/10.36719/2708-065X/107/136-140

XXI əsrdə informasiya texnologiyalarının inkişafı, kiberməkanın və sosial şəbəkələrin rolunun sürətlə artması ictimai diplomatiyanın bir növü olan "e-diplomatiya", yaxud "kiberdiplomatiya"nın yaranmasına şərait yaradıb. Bu gün kiber məkanda reallıq və uydurmanı bir-birindən fərqləndirmək, bu məkanı tam idarə etmək, onu nəzarətdə saxlamaq çətindir. Bu da təhlükəsiz ictimai kiber məkanın yoxa çıxmasına səbəb olub. Bu səbəbdən bir sıra dövlətlər kiber məkanda öz təhlükəsizliklərini təmin etmək, həmçinin İnternetdə öz fəaliyyətini tənzimləyəcək məqsədilə strategiya işləyib hazırlayırlar.

"İctimai diplomatiya döyüş çəkmələri geyinib" ifadəsini ictimai diplomatiyanın bütün sahələrinə aid etmək doğru olmasa da, onun bir hissəsi olan kiberdiplomatiyanın bir əlində "kökə", o biri əlində "qamçı" tutduğunu inkar etmək çətindir. Bu gün kiber məkanda üz-üzə durmuş "virtual orduların" da qarşılıqlı olaraq silahlı və zirehli olduğunu nəzərdən qaçırmaq olmaz.

Açar sözlər: kiber məkan; kiberdiplomatiya, netizen, virtual ordu.

Giriş. Dövlətlər öz xarici siyasət məqsədlərinə çatmaq və öz mövqelərini möhkəmləndirmək məqsədilə tarix boyu ən təsirli metodlar yaratmağa və tətbiq etməyə çalışıblar. Bunun nəticəsində, uzun təkamül prosesi keçmiş diplomatiyanın ənənəvi qaydalara tabe olmayan müxtəlif növləri və kreativ metodları yaranıb. XXI əsrdə informasiya texnologiyalarının inkişafı, kiberməkanın və sosial şəbəkələrin rolunun sürətlə artması da dövlətlərin müxtəlif sahələrlə yanaşı xarici siyasət fəaliyyəti üçün də yeni reallıqlar yaratdı. Bu gün hər bir xarici siyasət məqsədinin həyata keçirilməsi rəqəmsal diplomatiya vasitəsilə dəstəklənir.

Əvvəllər nisbətən "gizli" fəaliyyət sahəsi sayılan diplomatiya informasiya cəmiyyətinin inkişafı sayəsində getdikcə daha çox ictimailəşdi, adi vətəndaşlar üçün də daha əlçatan oldu. Dövlətlərin rəsmi idarələri də o cümlədən Xarici İşlər idarələri öz rəsmi veb-saytlarına, qlobal sosial şəbəkələrdə ("Twitter", "Facebook", "YouTube" və s.) öz internet hesablarına malikdirlər.

Diplomatiyanın rəqəmsallaşması və yaranmış yeni informasiya mühiti dövlətlər qarşısında xarici siyasətlərini həyata keçirmək və öz qaydalarını diktə etmək üçün yeni imkanlar açdı. İnternet insanlar arasında yalnız kütləvi əlaqə yaratmır, o, həm də zəruri hallarda bu əlaqələri təşkil etmək üçün istifadə edilən kütləvi informasiya vasitəsidir.

Buna uyğun olaraq, kiberdiplomatiya diplomatiyanın bir növü olaraq qəbul edilərək xarici siyasətin perspektiv sahəsinə çevrilib. Dövlətlər İnternet vasitəsilə manipulyasiya həyata keçirir, kiberməkandan öz xeyirlərinə istifadə edirlər. Demək olar ki, bütün dövlətlər tərəfindən "e-diplomatiya" üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqət ayrılır.

Göstərilənlərə uyğun olaraq sistemli və institusional yanaşma, müqayisəli analiz və tədqiqat metodlarından istifadə edilərək məqalədə kiberdiplomatiyanın yaranması və həyata keçirilməsinin bəzi üsulları nəzərdən keçirilir.

Ənənəvi və qeyri-ənənəvi diplomatiya. Həyata keçirilmə metodlarından asılı olaraq diplomatiya rəsmi (yaxud ənənəvi) və qeyri-rəsmi (yaxud qeyri-ənənəvi) olmaqla iki növə ayrılır.

Ənənəvi diplomatiya rəsmi diplomatik kanallar – dövlətin mərkəzi və xaricdəki xarici əlaqə orqanları, həmçinin xarici siyasət sahəsində səlahiyyətli şəxsləri vasitəsilə həyata keçirilir. Qeyri-ənənəvi diplomatiya isə xarici siyasət fəaliyyətində rəsmi dövlət strukturları ilə yanaşı, qeyri-rəsmi ictimai təşkilatların, müxtəlif vətəndaş cəmiyyətlərinin nümayəndələrinin də cəlb edilməsi ilə həyata keçirilir. Rəsmi və qeyri-rəsmi diplomatiya bir-birini istisna etmir, əksinə tamamlayır. Diplomatik ünsiyyətdə

ənənəvi və qeyri-ənənəvi diplomatiyanın bir-birini tamamlayan fəaliyyəti çoxşaxəli diplomatiya (*multi-track diplomacy*) kimi qəbul edilir [4, s.146-147].

Tərəflər arasında qeyri-rəsmi ünsiyyət olan qeyri-ənənəvi diplomatiya öz imkanlarından istifadə edərək rəsmi diplomatiyaya xidmət edir və onun əhəmiyyətini artırır. Qeyri-ənənəvi diplomatiyanın bir növü də kiberdiplomatiyadır.

Kiberdiplomatiya. İctimai diplomatiyanın bir növü olan, müasir dövrün tələblərinə uyğun və cağırışlarına cavab olaraq formalaşan "e-diplomatiya", "sosial şəbəkələr diplomatiyası", yaxud "kiberdiplomatiya" adlanan yeni növü XXI əsrdə yaranıb. Heç bir milli sərhəd tanımayan İnternet cəmiyyətin və dövlətin bütün sahələrinə, həmçinin beynəlxalq siyasətə transformativ təsir göstərərək onun ictimai rəyi manipulyasiya etmək imkanlarını genişləndirməyə, beynəlxalq arenada fərqli davranış normaları formalaşdırmağa nail olub [5, s.222].

Rəqəmsal diplomatiya geniş beynəlxalq auditoriya ilə qarşılıqlı əlaqəyə yönəlib və informasiya texnologiyalarının, ilk növbədə sosial şəbəkələrin imkanlarına əsaslanır. Bu diplomatiya ənənəvi ictimai diplomatiyadan əsas onunla fərqlənir ki, o, real vaxt rejimində xarici auditoriya ilə uzunmüddətli interaktiv əlaqələr yaratmağa və saxlamağa imkan verir [7, s.26]. Bu da dövlət orqanlarına xarici siyasət məsələlərini həyata keçirərkən informasiya kommunikasiya texnologiyalarından və vasitələrindən xarici auditoriyaya təsir mexanizmi kimi istifadə etmək imkanı verir.

NetDiplomacy-nin yaranması. Şəbəkə diplomatiyasının (NetDiplomacy) yaranması haqqında ilk dəfə 2001-ci ildə ABŞ-da elan edilib və növbəti il ABŞ Dövlət Departamentində rəqəmsal diplomatiya məsələləri ilə məşğul olan ilk işçi qrup (Digital Outreach Team) yaradılıb [5, s.222].

İlk olaraq, bu diplomatiyanın aşağıdakı üsullarla həyata keçirilməsi nəzərdə tutulurdu: internetdə radio və televiziya proqramlarının yerləşdirilməsi, rəqəmsal formatda və açıq rejimdə ABŞ haqqında ədəbiyyatın yayılması, bloq məkanında müzakirələrin monitorinqi, ABŞ hökumətinin üzvlərinin sosial şəbəkələrdə fərdi səhifələrin yaradılması, həmçinin mobil telefonlar vasitəsilə məlumatların göndərilməsi.

Bütün bunlar ABŞ hökumətinə tez bir zamanda istehlakçılara çatmağa, geri aldığı reaksiya (feedback) nəticəsində informasiya təbliğatının məzmununu dəyişmək imkanı əldə etməyə, auditoriyaya (xüsusilə gənclərə) təsir etməyə, blogerlərin müzakirələrini "düzgün" istiqamətə yönəltməyə, etirazçı gənclər və dissident qruplarını səfərbər etməyə imkan verir, rəsmi dövlət nümayəndələri ilə sosial şəbəkə iştirakçıları arasında real ünsiyyət qurmağa kömək edir. Mobil telefonlarına SMS göndərməklə isə ABŞ hökuməti auditoriyanın internetə çıxışı olmayan hissələri ilə əlaqə yaradır [6].

2004-cü ildən başlayaraq, Web 2.0 texnologiyalarının yaranması ilə İKT-nin inkişafında yeni dövr başladı. İnternet istifadəçisi ilk dəfə olaraq saytlarda yerləşdirilən məlumatları oxumaq deyil, həm də onlara şərh yazmaq, bəyənmək və s. şəkildə öz münasibətini bildirmək imkanı əldə etdi. Bundan başqa, adi vətəndaşlar Web 1.0 texnologiyaları dövründən fərqli olaraq İnternetdə məlumatları artıq özləri də yarada, yaxud yerləşdirə bilərdilər. Bu dövrdən etibarən sosial şəbəkələr, bloqlar, foto və video hostinqlər, viki saytlar sürətlə inkişaf etməyə başladı və son nəticədə ABŞ ictimai diplomatiyasında "ictimai diplomatiya 2.0" kimi bir istiqamət meydana çıxdı [3, s.106; 11].

2006-cı ildə sosial şəbəkələrdə istifadəçilər tərəfindən Birləşmiş Ştatlar haqqında yayımlanan məlumat və dezinformasiyalara nəzarət edən ilk mütəxəssislər qrupunu yaradılır və Dövlət Departamentinin Dipnote adlı ilk rəsmi bloqu istifadəyə verilir [6; 11]. Artıq 2008-ci ilə qədər xarici internet auditoriyası ilə işləmək üçün ABŞ Dövlət Departamentində, Mərkəzi Kəşfiyyat İdarəsində (CIA), Müdafiə Departamentində və Beynəlxalq İnkişaf Agentliyində (USAID) 15-dən çox şöbə fəaliyyət göstərirdi. Bu şöbələr beynəlxalq və milli sosial şəbəkələrin təhlili, həmçinin ABŞ-ın həmin auditoriya qarşısında müsbət imicini yaradan məlumatların yayılması ilə məşğul olurdu. 2009-2013-cü illərdə ABŞ-ın dövlət katibi olmuş Hillari Klinton ABŞ Dövlət Departamentində yeni texnologiyaların tətbiqini və İnternetin imkanlarından istifadəni də nəzərdə tutan islahatlar çərçivəsində ən böyük özəl İnternet şirkətlərinin (Google, Facebook, Twitter və s.) rəhbərlərini əməkdaşlığa cəlb etməyi bacarmışdı [5, s.222].

Zaman keçdikcə, rəqəmsal diplomatiyanın məqsədləri qalsa da ondan istifadə metodları təkcə göstərilənlərlə məhdudlaşmır, getdikcə digər üsulları yaranır, eyni zamanda, bu diplomatiyanı həyata keçirmək üçün müəyyən qüvvələr cəlb olunur, onun öz subyektləri formalaşır.

Netizen*-lər (yoxsa "virtual ordu"). İnternet nəzəriyyəçisi və tərtibatçısı Michael Hauben və Ronda Hauben İnternetin tarixini və onun sosial təsirini araşdıraraq 1994-cü ildə "Netizens and the wonderful world of the net" (İnternet vətəndaşları və şəbəkənin möcüzəli dünyası) adlanan tədqiqat işi təqdim edirlər. Bunun ardınca, 1997-ci ilin mayında onların "Netizens: on the history and impact of Usenet and the internet" (İnternet vətəndaşları: şəbəkə iştifadəçilərinin və İnternetin tarixi və təsiri haqqında) kitabı dərc edilir. M.Hauben kitabın birinci fəslini aşağıdakı təbrik sözləri ilə başlayır: "*21-ci əsrə xoş gəldiniz. Siz Netizensiniz (şəbəkə vətəndaşısınız) və İnternetin mümkün etdiyi qlobal əlaqə sayəsində dünya vətəndaşı olaraq mövcudsunuz. Hamını öz həmvətəniniz hesab edirsiniz. Siz fiziki olaraq bir ölkədə yaşayırsınız, lakin qlobal kompüter şəbəkəsi vasitəsilə dünyanın çox hissəsi ilə əlaqədəsiniz. Virtual olaraq siz dünyanın bütün digər Netizenləri ilə qonşusunuz. Coğrafi ayrılıq eyni virtual məkanda mövcudluqla əvəz olunur*" [9].

M.Haubet öz müraciətində internet dövrünün bütün insanlarına "İnternet vətəndaşı" deyərək müraciət etsə də sonradan - müxtəlif bloqlarda, forumlarda və sosial şəbəkələrdə öz fikirlərini bildirən aktiv internet istifadəçilərini də "netizen" adlandırılmağa başladılar [13].

Çin hökuməti 2004-cü ildən başlayaraq sosial şəbəkələrdə hökumətin maraqlarına uyğun şərhlər yazan İnternet-şərhçilərin cəlb edilməsinə başlayıb. Netizenlər, yaxud "İnternet vətəndaşları" adlanan həmin şəxslər ölkənin populyar sosial media saytlarında Çin Kommunist Partiyasının ziyanına aparılan diskussiyaları pozmaq məqsədi daşıyan müsbət şərhlər və ya məqalələr hazırlayıb paylaşır, hökumətin maraqlarına xidmət edən əhvalatları təbliğ edir, siyasi müxalifət haqqında aşağılayıcı şərhlər və dezinformasiyalar yayır, dövlət ideologiyasını təbliğ və ictimai rəyi manipulyasiya edirlər. Hökumət tərəfindən dəstəklənən həmin şərhçilər özlərinin yazdıqları hər müsbət rəyə görə aldıqları məbləğin miqdarına uyğun olaraq "50 sentlik ordu" adlandırılırlar. Çin hökuməti tərəfindən internet şərhçiləri komandasına nisbətən yaxşı siyasi və peşəkar keyfiyyətlərə, həmçinin yenilikçi və təşəbbüskar ruha malik olan şəxslər cəlb edilərək onlara təlim keçirilir. Çünki kiberməkanı idarə etmək asan olmadığı üçün hakimiyyət insanların öz fikirlərini ifadə etməsinə mane ola bilmir və əvəzində onların düşüncə tərzini dəyişməyə çalışır. Bunun üçün isə xüsusi təlim keçmiş və ideoloji cəhətdən mükəmməl internet şərhçilərinə ehtiyac var [10; 12].

2000-ci illərin sonuna doğru İstrail dövləti də gələcəyin İnternetə məxsus olduğunu anlayaraq virtual məkanda işin inkişafına ciddi vəsait sərf etməyə başlamışdı. İsrailin Absorbsiya Nazirliyi (Aliyah və İnteqrasiya Nazirliyi) mövcud çağırışlara cavab olaraq İsrailə virtual məkanda araşdırma işləri aparmağa kömək edəcək, eyni zamanda, ölkəyə nifrət edənlərə və ona qarşı saxta ittihamlar irəli sürənlərə layiqincə cavab verəcək israilli xarici dil bilən təbliğatçılar cəlb etmək qərarı vermişdi. Bu məqsədlə, yeni repatriantlara İsrailin təbliğat səylərinə qoşulmağa və ölkənin bütün dünyada imicinin yaxşılaşdırılmasına töhfə verməyə çağırış edilirdi. Buna uyğun olaraq, 2008-2009-cu illər Qəzza müharibəsi zamanı 2009-cu ilin yanvar ayında İsrailin Absorbsiya Nazirliyi XİN-in Təbliğat Departamenti ilə birlikdə xarici internet saytlarında yayımlanan anti-İsrail əhval-ruhiyyəli postlara qarşı mübarizə aparmaq məqsədilə ingilis, alman, ispan, portuqal, rus, fransız və s. dillərdə danışan israillilərdən ibarət könüllü "blogerlər ordusu" cəlb etmək üçün kampaniya həyata keçirmişdi [1]. Bu təcrübə bu gün dünyanın çox dövlətlərində tətbiq edilir.

Göstərilənlərlə yanaşı, İKT-nin və İnternetin sürətlə inkişafı xarici siyasət də daxil olmaqla bütün sahələrdə yeni metodlarla yanaşı, bir sıra problemlərin yaranmasına da yol açıb. Belə ki, dezinformasiya, kiber münaqişə, kiber müharibə və hibrid müharibə kimi müasir münaqişələr də inkişaf edib [2, s.5-6]. Qeyd etmək lazımdır ki, 2011-ci il Pentaqonun qəbul etdiyi "Kiber məkanda fəaliyyət Strategiyası" sənədində kiberməkan quru, dəniz, hava, həmçinin kosmosla birlikdə müharibə məkanı olaraq nəzərdən keçirilirdi [5, s.223].

Buna görədir ki, getdikcə daha çox dövlətlərin təhlükəsizlik sənədlərində kiber məkan dövlət təhlükəsizliyinə xüsusi hədə olaraq göstərilir və əksər dövlətlərin təhlükəsizlik strategiyasında kibertəhlükəsizliyə xüsusi yer ayrılır.

---

* *ingilis dilində "internet" + "citizen" sözlərinin birləşməsindən yaranıb. "Netizen" terminin ilk dəfə Michael Haubenin istifadə etdiyi deyilir [13].*

Nəticə. Xarici siyasətinin əsas məqsədinin dövlətin maraqlarını qorumaq, bu yolla öz təhlükəsizliyini təmin etmək olduğunu nəzərə alsaq, kiberdiplomatiyanın da dövlət təhlükəsizliyinin təmin olunmasına xidmət etdiyini demək olar. Bu gün kiber məkanda reallıq və uydurmanı bir-birindən ayırmaq, bu məkanı tam idarə etmək, onu nəzarətdə saxlamaq çətindir. Bu da təhlükəsiz ictimai məkanın yoxa çıxmasına gətirib çıxarıb. Bir sıra dövlətlər rəqəmsal texnologiyaların yardımı ilə özləri üçün İnternetdə ünsiyyət qaydaları formalaşdırmağa və müəyyən çərçivələr qurmağa cəhd edir, bu məqsədlə kiber məkanda öz fəaliyyətini tənzimləyəcək strategiya işləyib hazırlayırlar. "İctimai diplomatiya döyüş çəkmələri geyinib" [8, s.22] ifadəsini ictimai diplomatiyanın bütün sahələrinə aid etmək doğru olmasa da, onun bir hissəsi olan kiber diplomatiyanın bir əlində "kökə", o biri əlində "qamçı" tutduğunu inkar etmək çətindir. Bu gün kiber məkanda üz-üzə durmuş "virtual orduların" da qarşılıqlı silahlı və zirehli olduğu nəzərdən qaçırmaq olmaz. İctimai diplomatiyanın əsas aləti olan KİV-in xüsusi növü olan və Kiber diplomatiyanın əsasını təşkil edən İnternet isə bu gün "ağıllı güc"ü, yaxud "yumşaq müharibə"ni formalaşdırır.

ƏDƏBİYYAT

1. Знаешь иностранные языки? Ты можешь помочь стране!!!! (19.01.2009). URL: http://www.isra.com/news/106350 [30.10.2024].
2. Кулик С.А. «Электронная дипломатия». Начало. Аналитический доклад. Институт современного развития, февраль 2013, с.33. URL: https://ifap.ru/library/book532.pdf [30.10.2024].
3. Марчуков А.Н. «Публичная дипломатия 2.0» как инструмент внешнеполитической деятельности // Вестн. Волгогр. гос. ун-та. Сер. 4, Ист. 2014, № 4 (28), с.101-113.
4. Современные международные отношения: учебник и практикум для вузов / В.К. Белозёров [и др.]; под редакцией В. К. Белозёрова, М. М. Васильевой, А. И. Позднякова. - 2-е изд., пер. и доп. Москва: Юрайт, 2022, 318 с.
5. Сурма И.В. Цифровая дипломатия в пространстве мировой политики // Россия: тенденции и перспективы развития. 2015. № 10-1. С.220–249. URL: http://e-journal.spa.msu.ru/uploads/vestnik/2015/vipusk__49._aprel_2015_g._/kommunikazionnii_menedjment_i_strategitcheskaja_kommunikazija_v_gosudarstvennom_upravlenii/surma.pdf [30.10.2024].
6. Цветкова Н. Программы Web 2.0 в публичной дипломатии США. URL: https://ushistory.ru/nauchnye-stati/559 [30.10.2024].
7. Digital Diplomacy: Theory and Practice / Edited by Corneliu Bjola and Marcus Holmes. Routledge New Diplomacy Studies. 2015. P.253. URL: https://www.defence.lk/upload/ebooks/(Routledge%20New%20Diplomacy%20Studies)%20Bjola,%20Corneliu_%20Holmes,%20Marcus-Digital%20Diplomacy_%20Theory%20and%20Practice-Routledge%20(2015).pdf [30.10.2024].
8. Forging a 21st-Century Diplomatic Service for the the United States through Professional Education and Training / The Henry L. Stimson Center, American Foreign Service Association, and American Academy of Diplomacy. February 2011. URL: https://www.stimson.org/wp-content/files/file-attachments/Forging_a_21st_Century_Diplomatic_Service_-_Full_1.pdf [30.10.2024].
9. Hauben R., Hauben J., Zorn W., Chon K., Ekeland A. The Origin and Early Development of the Internet and of the Netizen: Their Impact on Science and Society. URL: https://www.researchgate.net/publication/251102167_The_Origin_and_Early_Development_of_the_Internet_and_of_the_Netizen_Their_Impact_on_Science_and_Society [30.10.2024].
10. China's internet 'spin doctors' (16 December 2008) URL: http://news.bbc.co.uk/1/hi/world/asia-pacific/7783640.stm [30.10.2024].
11. Cull N.J. The Long Road to Public Diplomacy 2.0: The Internet in US Public Diplomacy / N.J.Cull // International Studies Review. – 2013. – № 15. – P. 123–139. URL: https://ash.harvard.edu/wp-content/uploads/2024/02/cull.pdf [30.10.2024].
12. Xiaofeng Yang, Qian 11. Yang, Christo Wilso. Penny for Your Thoughts: Searching for the 50 Cent Party on Sina Weibo / Proceedings of the Ninth International AAAI Conference on Web and Social Media. URL: https://ojs.aaai.org/index.php/ICWSM/article/view/14649/14498 [30.10.2024].

13. Richard L.Lanigan, "Netizen" in The SAGE Encyclopedia of the Internet. URL: https://www.academia.edu/31086561/NETIZEN_SAGE_Encyclopedia_of_the_Internet_2018_Submitted_2016 [30.10.2024].

КЯМАЛЯ РУИНТАН
Доцент Бакинского Славянского Университета,
Доктор философии по политическим наукам

КИБЕРПРОСТРАНСТВО: ПРОСТРАНСТВО ДЛЯ ДИПЛОМАТИИ ИЛИ ВОЙНЫ?

Развитие информационных технологий, стремительное возрастание роли киберпространства и социальных сетей в XXI веке создали условия для появления нового типа публичной дипломатии, получившего название «электронная дипломатия» или «кибердипломатия». Сегодня в киберпространстве сложно отличить реальность от вымысла, полностью управлять этим пространством, и держать его под контролем. Это привело к исчезновению безопасного публичного киберпространства. По этой причине ряд государств разрабатывают стратегии по обеспечению своей безопасности в киберпространстве а также по регулированию своей деятельности в Интернете.

Хотя и неверно применять фразу «публичная дипломатия носит военные ботинки» ко всем областям публичной дипломатии, трудно отрицать, что кибердипломатия (являющаяся ее частью) держит в одной руке «пряник», а «кнут» в другом. Не следует упускать из виду и то, что «виртуальные армии», противостоящие сегодня друг другу в киберпространстве, также вооружены и бронированы.

Ключевые слова: киберпространство; кибердипломатия, сетянин, виртуальная армия

KAMALA RUINTAN
Associate professor of Baku Slavic University,
Doctor on Philosophy in Political Science

CYBERSPACE: A SPACE FOR DİPLOMACY OR WAR?

The development of information technology and the rapidly growing role of cyberspace and social networks in the 21st century have created conditions for the emergence of a new type of public diplomacy, called "electronic diplomacy" or "cyberdiplomacy". Today, it is difficult to distinguish reality from fiction in cyberspace, to fully manage this space, and to keep it under control. This has led to the disappearance of safe public cyberspace. For this reason, a number of states are developing strategies to ensure their security in cyberspace and to regulate their activities on the Internet.

While it is incorrect to apply the phrase "public diplomacy wears combat boots" to all areas of public diplomacy, it is difficult to deny that cyber diplomacy (which is a part of it) holds the "carrot" in one hand and the "stick" in the other. It should not be overlooked that the "virtual armies" confronting each other in cyberspace today are also armed and armored.

Keywords: cyberspace; cyberdiplomacy, netizen, virtual army.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Şirinbəy Əliyev, t.e.d. Adil Mirabdullayev.